Xalq qəzeti 2021.- 5 fevral.- S.4.

# Xüsusi şəhər, ruhumuzun paytaxtı – Şuşa!



***Azərbaycan Prezident İlham Əliyev Şuşaya xüsusi nümayəndə təyin etdiyi Aydın Kərimovu videoformatda qəbul edərkən ona bir sıra istiqamətlər üzrə tapşırıq və tövsiyyələr verməklə yanaşı, cəmiyyətimizə, eləcə də, dost olan, olmayan yaxın, uzaq dövlətlərə də ismarıclar verdi. Əslində, Ali Baş Komandanın ismarıcları yalnız Şuşa ilə, yalnız Qarabağla bağlı deyil, bütün Azərbaycan, region və dünya ilə bağlıdır, ümumdünya marağı kəsb edir. Bu maraq işğalla azadlığın, cəhalətlə müasir dünyagörüşlü olmağın, qaranlıqla gündüzün, şərlə xeyirin fərqini ifadə edir.***

Bir məqama diqqət edək: qalib ölkələrdə özünü göstərən arxayınçılıq, əldə edilmiş yüksək nəticə ilə qürur qarışıq barışıqlıq və s. qalib ölkəmizdə önəmli ölçüdə hiss olunmur. Müzəffər Ali Baş Komandan ölkəni daha yeni hədəflərə kökləyir. Necə deyərlər, arxayınlaşmaq yoxdur, sakitləşmək, tənbəlləşmək yoxdur! Fəaliyyət müstəvisi, forma dəyişmiş ola bilər, ancaq hədəf və məzmun dəyişməyib, əksinə, daha yeni üfüq qazanıb, dərinlik kəsb edib.

Azərbaycan böyüyür, itirilmiş haqlarını bərpa edir. Dövlətimiz sabahlara daha güclü və alnıaçıq, üzüağ gedir! Mübarizə yalnız tankla, topla olmur, bütün əməli fəaliyyət sahələrində və koordinasiyalı şəkildə həyata keçirilir. "İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir"; "Yol – iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir" (H.Əliyev). Təsəvvür edin: 44 günlük Vətən müharibəsi bütün digər tərəfləri, məziyyətləri ilə yanaşı, nə qədər iqtisadi imkanlarımızı özümüzə qaytardı, düşmənə nə qədər iqtisadi zərbə oldu. Eyni zamanda, 44 günlük müharibə Ermənistanı, bəlkə 44 il geri atdı – bura psixoloji, ideoloji, siyasi, hərbi məsələlərlə yanaşı, məhz iqtisadi amil ön planda daxildir. Həmçinin 44 günlük müharibə sözün hər mənasında yolumuzu açdı, üfüqümüzü genişlətdi.

Müharibə bitər-bitməz yeni yollar tikilir: sürətli, enli, keyfiyyətli; Naxçıvan yolu açılır, bu bölgədə yeni siyasi-iqtisadi iqlim yaradacaq. Hava yollarının yeni marşurutları Qarabağdan keçəcək: Füzuli Hava limanı 24/7 iş rejimində tikilir; Laçın, yaxud, Kəlbəcər Hava limanının təməlinin qoyulacağı gün də uzaqda deyil. Və istər müharibədə, istər müharibədən sonra bütün yollar Şuşaya aparır. Müzəffər Ali Baş Komandan Şuşanı şəhərin adına layiq, öz adına layiq, Azərbaycanın adına layiq gözəllik, vaxt və keyfiyyətdə təmir-bərpa etmək üçün böyük işlər görür: Ləyaqətli Şuşa üçün fövqəladə, təxirəsalınmaz işlər başlayıb. Şuşaya yol çəkilir; Şuşa mədəniyyət paytaxtımız elan olunub; Şuşanın iki əsas festivalı – "Xarı Bülbül" və "Vaqif Poeziyal Günləri" bərpa edilib; Şuşaya xüsusi nümayəndə təyin edilib və s. Əgər Ermənistan siyasi-hərbi rəhbərliyi, birgəyaşayışdan anlamayan ermənilər şüuraltı, şüuryanı, daha doğrusu, şüursuz şəkildə Şuşamıza, Şuşanı dirçəltməyimizə qarşı "plan" cızırsa, yəqinliklə demək olar ki, faydasızdır! Demək ki, dünyanı, bölgəni sarmış yeni gerçəklikləri anlamamışlar. Necə deyərlər, nə müharibəni anladılar, nə müharibə sonrasını… İndi ən ağıllı yol Azərbaycanla anlaşmaqdır, Azərbaycana qarşı durmamaqdır, Azərbaycana sayğı duymaqdır. Bu münasibət bizdən öncə sayğı duymalı olanlara gərəklidir. Gərək heç kəs unutmasın ki, Azərbaycanın unutmayacağı yaraların üstünə hər hansı janr, kateqoriya, məzmunda yara əlavə etmək, onun qaysağını qopartmaq, tarix üçün, gələcək üçün bizim sevgimizdən, xeyirxahlığımızdan, dəstəyimizdən məhrum olmağa gətirib çıxaracaq. Adamlar onlara edilmiş pislikləri unuda bilər, kin, nifrət heç kəsə fayda vermir, ancaq pisliyini unutduğun da yeni pisliklər axtarışında olmamalıdır.

Xalqlar, dövlətlər adamlar kimi deyil, burada kollektiv məsuliyyət var, tarixi məsuliyyət var, gələcəyin inşası var və uzunmüddətli düşmənçiliklər etmiş, qan tökmüş dövlətləri bağışlamaq adamları bağışlamaq kimi deyil. Adamlar bir yerdən başqa yerə köçə bilər, iş yerini dəyişə bilər, ölə bilər və s.; xalq, dövlət, ölkə köçmək üçün deyil, küsmək üçün deyil… Dövlətimiz əbədidir: dünən vardıq, bu gün varıq, sabah da olacağıq! Azərbaycan xalqı bu torpaqlar üzərində həmişə yaşayıb, qurub, yaradıb; haylarsa Qafqaza, bizim torpaqlara gəldiklərindən indiyə qədər dağıdıb, yıxıb, uçurub, "özününküləşdirib"; öldürüb, qan töküb, güllə atıblar… Qan axıtmaq aludəçiliyi, məhz günahsız qan axıtmaq ağlı azaldır, şüuru zədələyir, insandakı insanlığı söndürür.

Haylar Qafqazda, Azərbaycan ərazilərində son iki əsr ərzində məskunlaşmağa, ötən əsrin əvvəllərindən etibarən qurumsallaşmağa başlayıb. Hayların respublikamızın ərazisində ən təsirli vaxtları XX əsrin 20 – 40-cı illərində olub, ən ağır zərbələri də o illərdə almışıq. Sonralar böyük tarixi hadisələr, bizim sadədilliyimiz, xoş münasibətimiz hayların heç nə olmamış kimi yaşamalarına münbit ortam yaradıb. Nəhayət SSRİ-nin çöküşə getdiyi illərdə haylar onlar üçün çox əlverişli mövqelərə, yerlərə, imkanlara sahib idilər və ağılları olsaydı, rahat, firavan həyat sürərdilər; əgər haylar milli münaqişədən uzaq dursaydılar, Qafqazlarda ən "komfort zona"da həyata davam edərdilər. Amma günahlar, cinayətlər bəsirət gözlərini kor etdi. Əlbəttə, İlahi ədalət var və əlbəttə, günahsız qan tökə - tökə, evlər yıxa-yıxa "komfort zona"da qalmaq mümkün olmazdı. İndi, budur, haylar uğursuz dövlət qurduqları 100 illik tarixin ən bərbad, inamsız – darmadağın günlərini yaşayır. Heç olmazsa, indi ağıl kateqoriyasında bir hərəkətdə olsalardı, bəlkə olan-qalanlarını əldə saxlayar, yaralarını sarıya bilərdilər. Ola bilsin, artıq ağıllı düşünməkdən keçib, quduzların başına yenidən "dəmir yumruq" enməlidir. İlahi ədalət, kainatın ruhu, ümumdünya gedişatı və əlbəttə, Azərbaycanın özündən böyük mənası hər kəsə öz layiq olduğu yeri bir göstərib, bir də göstərər...

***

Azad edilmiş ərazilərimizdə Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi institutu yanvarın 19-da yaradılıb; ilk xüsusi nümayəndə Şuşaya təyin olunub. "Niyə məhz Şuşa?" – sualının cavabı özlüyündə aydındır. Çünki Şuşa bizim üçün xüsusi şəhərdir, simvol şəhərdir. Prezidentin "Mədəniyyət paytaxtı" elan etdiyi Şuşa unikal hərbi taktika ilə azad edilib, bu azadetmə əməliyyatı, demək olar, ağılalmaz şəkildə baş verib – bunu düşmən tərəfin ictimailəşmiş etiraflarından da görmək olar, öz hərbçilərimizin qürurla danışdıqlarından da. Şuşa həm azad edilib, həm mümkün dağıntılardan qorunaraq azad edilib. 30 il öncəsində qoruya bilmədiyimiz şəhəri qoruya-qoruya azad etmişik. Bütün dövrlərdəki şəhidlərimizə rəhmət, qazilərimizə can sağlığı, yaralılarımıza şəfalar!

Bəli, Şuşa mədəniyyət paytaxtımız elan olunub, yəqin ruh paytaxtı qavramı rəsmi ədəbiyyata, dilə keçmiş olsaydı, Şuşamıza "Ruh paytaxtı" deyərdik. Şuşanın azad olunması ilə ruhumuz azad olub, üfüqümüz genişlənib, inamımız möhür kimi hər yaddaşa vurulub. "Şuşa Azərbaycan xalqının qəlbində xüsusi yerə malikdir. Şuşa Qarabağın tacıdır, Şuşa təkrarolunmaz şəhərdir. Şuşanın yerləşməsi, təbiəti, havası, iqlimi, tarixi abidələri, dini abidələrimiz, şəhərin memarlıq ansamblı bizim milli sərvətimizdir. Şuşanı biz qorumalıyıq, qoruyacağıq. Biz Şuşaya qayıtmışıq və bundan sonra Azərbaycan xalqı Şuşada əbədi yaşayacaqdır. Necə ki, bütün dövrlərdə Şuşa həmişə Azərbaycan şəhəri olmuşdur və ermənilərin saxtakarlıq cəhdlərinə baxmayaraq, bütün dünya Şuşanı məhz Azərbaycan şəhəri kimi tanıyıb və qəbul edib". Azərbaycan Prezidentinin Şuşaya verdiyi bu xüsusi önəm Qarabağın sürətlə inşa edilən gələcəyinə bəslənən diqqət-qayğının nişanəsidir.

Biz, Şuşa başda olmaqla Qarabağı tikirik, qururuq, yaradırıq; imkanlar artır, yeni iş yerləri açılır, işğal dönəmi ilə azad edilmədən sonrakı dönəmin fərqi açıq görünür və s. Bütün bunlar ağlı başından tam çəkilməmişləri də düşündürür, əlbəttə. Böyük ehtimalla görürlər ki, Azərbaycanın ayağının altında qalmaqdansa, ayağının tozunu silmək daha ağıllı davranışdır...

Dövlət başçımızın "Şuşanı dirçəldəcəyik!" sözü "Qarabağı dirçəldəcəyik", "Azərbaycanı dirçəldəcəyik", "Qafqazı dirçəldəcəyik!" şəklində də oxuna, qəbul edilə bilər.

Dövlətimiz zaval görməsin! Bayrağımız uca olsun!

***Əkbər QOŞALI***